AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 10/2

Bakı şəhəri 15 may 2018-ci il

AMEA-nın Ümumi yığıncağının
keçirilməsi haqqında

Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. 08 iyun 2018-ci il tarixində AMEA-nın Ümumi yığıncağı keçirilsin.
2. AMEA-nın Ümumi yığıncağının aşağıdakı gündəliyi təsdiq edilsin:
   – AMEA Rəyasət Heyətinin 2017-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat;
   – Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalının təqdimatı;
   – AMEA-nın adlı mükafatlarının təqdimatı;
   – AMEA-nın Rəyasət Heyəti üzvlüyünə seçkilərin keçirilməsi haqqında.
3. AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyevə tapşırılsın ki, Ümumi yığıncağın müzakirəsinə çıxarılacaq məsələlərə aid materialların hazırlanmasını və seçkilərin keçirilməsindən irəli gələn məsələlərin həllini təmin etsin.
4. AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil idarəsinə (AMEA-nın müxbir üzvü Əminağa Sadıqov) tapşırılsın:
   4.1. “Azərbaycan Milli Elmlər Akademiyasının 2017-ci il üzrə fəaliyyəti haqqında hesabat” məcmuəsinin 31 may 2018-ci il tarixinədək AMEA-nın üzvlərinə paylanması təmin edilsin;
   4.2. Ümumi yığıncağa dəvət olunanların siyahısı hazırlansın və 04 iyun 2018-ci il tarixinədək AMEA-nın akademik-katibinə təqdim edilsin.
5. Elmi bölmələrə tapşırılsın ki, AMEA-nın Ümumi yığıncağında üzrlü səbəblərə görə iştirak edə bilməyəcək AMEA-nın həqiqi və müxbir üzvlərinin siyahısını 04 iyun 2018-ci il tarixinədək AMEA-nın akademik-katibinə təqdim etsinlər.

6. AMEA-nın İşlər idarəsinə (siyasi elmlər üzrə elmlər doktoru Fətəli Abdullayev) tapşırılsın ki, AMEA-nın Ümumi yığıncağının keçirilməsindən irəli gələn müvafiq tekniki-təşkilati və təsərrüfat məsələləri həll edilsin.
7. AMEA-nın İnformasiya Texnologiyaları İnstitutuna tapşırılsın ki, Ümumi yığıncağın keçirilməsi ilə əlaqədar məsələlərin İKT təminatını həyata keçirsin.
8. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.

AMEA-nın prezidenti — akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi — akademik Rasim Əliquliyev